Ədalət.- 2020.- 29 fevral.- S.13



Oqtay Əliyev

# Satirik qələmlə

## *İtlərin sümük davası*

Həvirləşmiş itlər göngəni qamarlayıb yıxdırdılar. Xirtləyindən yapışıb boğub candan eliyən dəstəbaşı Bozdar çəkilib bir səmtdə qurd baxışları ilə müşahidə edirdi. Bozdarın leşə cummaması təəcüb doğururdu.

Bazdarsa kimin nə qapdığına ciddi və dəqiq nəzarət edirdi. Zəhmli bozdarın yağlı leşə yaxın durmaması hamını xoflandırmışdı.

Bldok leşin yağlı döşünü qamarlayıb üstündə sərilib dişlərini qıcamışdı.

Topar leşin bur sümüyünü götürüb zavod xarabalıqları arasında yox oldu.

Qara it leşin qabırğalarını dartışdırırdı.

Qaçıb aradan çıxmağı üstün tutan qulağı kəsis qapdığını xımır-xımır gəmirirdi.

Leşin dümmbülünü sarı qulaq qapdı.

Vartan cöngənin baldır maçasını dartışdırırdı.

Şökqulaq ora-bura təpilirdi.

Təpəl leşin qarnını yırtıb tökmüşdü.

Cek şığıyıb böyük bir tikəni qapıb uçdu.

Tula ətrafda zingildəyib itlərin qoltuqaltına girirdi.

Leşsökənlərin bütün baxışları gözaltı pələng cüssəli, hərdən nərildəyən Bozdara dikilmişdi. Leşdən kəllədən başqa bir şey qalmamışdı.

Bozdarın zəhimli nəriltisi sükutu dəldi. - Mənə onun kəlləsini verin! Başını. Çünki beyin başda yerləşir. Dili, xirtləyi, boğaz-boynu başdan yön alır. Mənə onun başını verin...

## *Üzü tüpürcəklilər*

Müdiriyyətin ənənəvi toplantısı bu dəfə də heç bir nyuansla fərqlənmirdi. Kollektiv artıq adət etmişdi, bir qayda olaraq arxayınlıqla və sərbəst əyləşir, baş verənlərin, törənmiş xətaların, buraxılmış nöqsanların başlıca və əzəli günahkarı, baisi Salmanın o ki, var danlanmasını, söyülməsini şövqi-təbii ilə qəbul edirdilər. Yığıncağın yekununda ucqar yerdə əyləşmiş Salmanın ətli sifətinə lombası ilə tüpürərək, növbəti toplantını bitmiş hesab edirdilər.

Salmanın özü də artıq bu vəziyyətə alışmış və heç vaxt da etiraz etməzdi. Xoş olmasa da artıq bir növ vərdiş halını almışdı.

Ənənəvi keçirilən toplantı başlayar-başlanmaz həmişə kifayət qədər təhqir olunan və sifətinə tüpürülən Salman keçib hamıya yaxşı görünən bir kənardakı oturacaqda qaşqabaqlı, yanpörtü əyləşdi. Adəti üzrə, məddahlar bir-birinin ardınca sinəsini kürsüyə dirəyib, ona heç də aidiyyatı olmayan ittihamlarını eşitməyə öyrəncəli idid. Qulaqları girinc olmuşdu. Odur ki, iclas zalına girəndə sanki heç nə eşitmirdi. Bu dəfə də rəhbərlər və tutuquşu kimi ağızlardan söz alıb yerli-yersiz danışan məddahlar, süfrə qulağı sulayanlar çox palan içi tökdülər, ciddi tənqid atəşləri salonu lərzəyə salmışdı.

Yığıncaq çoxdan sona yetişsə də, Salman yerindən qalxmırdı. O, ənənəvi hal almış, sifətinə tüpürmək tədbirinin başa çatmasını gözləyirdi.

Direktor müavini cənab Lazımov Salmana üz tutdu:

- Əşşi, nə qaxılıb-qalmısan? Durub, çıxıb getsənə!



Salman döyükdü. Düşündü ki, "Bunlara nə olmuşdur. Qəribədir, bəs nə üçün hələ də onun üzünə tüpürmürlər?!" ? fikirləşib yerindən dik atıldı.

- Nə durmusunuz? Tüpürün üzümə, gedim də ...? deyə cənab Lazımova tərəf çəmkirdi.

Müdir müavini cənab Lazımov:

- Salman, belə getsə, sənə şükürlər edəcəyik. Üzü tüpürcəklilər o qədər çoxalıb ki, artıq bir toplantıda üzlərinə tüpürüb, vaxt çatdıra bilmirik. Dur get Salman!.. Salman, dur get!..

... Oyun zərinin altı üzü var, amma adamlar var ki, min sifətlidir.